Azerbaijani - Qadınlar - Wives Scriptures

Efeslilərə 5:22-24 Ey qadınlar, Rəbbə tabe olduğunuz kimi ərlərinizə tabe olun. 23 Çünki bədənin Xilaskarı olan Məsih imanlılar cəmiyyətinin Başı olduğu kimi ər də arvadının başıdır. 24 Ona görə cəmiyyət Məsihə tabe olduğu kimi arvadlar da hər vəziyyətdə öz ərlərinə tabe olsunlar.

Efeslilərə 5:31,33 «Buna görə də kişi ata-anasını tərk edib arvadına qovuşacaq və ikisi bir bədən olacaq». 33 Sizə gəlincə, qoy hər kəs öz arvadını özü kimi sevsin, arvad isə ərinə ehtiram etsin.

1 Korinflilərə 7:3 Ər arvadına aid, arvad da ərinə aid olan nikah borcunu yerinə yetirsin.

1 Korinflilərə 7:34 və diqqəti yayınır. Ərsiz qadın yaxud qız da Rəbbin işlərinin qayğısına qalır ki, həm bədəndə, həm də ruhən müqəddəs olsun. Ərli qadın isə ərini razı salmaqdan ötrü dünyəvi işlərin qayğısına qalır.

Kolosselilərə 3:18 Ey qadınlar, Rəbdə olanlara layiq olduğu kimi ərlərinizə tabe olun.

1 Timoteyə 2:11-15 Qadın sakitlik və tam bir tabelik içində öyrənsin;12 qadının öyrədib kişiyə ağalıq etməsinə izin vermirəm, qadın sakit olsun. 13 Çünki ilk yaradılan Adəm oldu, sonra Həvva. 14 Aldadılan da Adəm deyildi, qadın aldadılıb əmri pozdu; 15 amma qadın doğuşla xilas olacaq, bir şərtlə ki ağıl-kamalla imanda, məhəbbətdə və müqəddəslikdə yaşamağa davam etsin.

Genezis 3:16 Sonra Rəbb Jehovah qadına dedi: «Hamilə olanda sənə Çox əziyyət verəcəyəm, Uşaqlarını ağrı içində doğacaqsan. Ərinə meylli olacaqsan, O sənə ağalıq edəcək».

1 Peter 3:1,2 Ey arvadlar, siz də eyni tərzdə öz ərlərinizə tabe olun. Əgər onlardan bəzisi Jehovahın kəlamına itaət etməzsə, siz arvadların ismətli, ehtiramlı həyat tərzinizi müşahidə etsinlər; beləcə onları dinməz-söyləməz qazana bilərsiniz.

Tite 2:1-5 Sənsə sağlam təlimə uyğun olanı öyrət. 2 Yaşlı kişilər ayıq, ləyaqətli, ağıllı-kamallı, imanda, məhəbbətdə və dözümdə sağlam olsunlar. 3 Yaşlı qadınlar da eyni şəkildə müqəddəslərə yaraşan tərzdə davransınlar. Böhtançı, şərab düşkünü olmasınlar və xeyirli şeyləri öyrədərək 4 tərbiyə etsinlər ki, gənc qadınlar ərlərini və uşaqlarını sevsinlər, 5 ağıllı-kamallı, ismətli, evdar, xeyirxah, öz ərlərinə tabe olsunlar. O zaman Jehovahın kəlamına küfr olunmaz.

Məsəlləri 12:4 Xeyirxah arvad ərinin tacıdır, Adbatıran qadın çürümüş

sümüyə oxşar.

Məsəlləri 14:1 Hikmətli qadın evini qurar, Səfeh qadın onu öz əli ilə uçurar.

Məsəlləri 19:13 Axmaq oğul atasına bəla olar, Davakar arvad kəsilməyən damcıya oxşar.

Məsəlləri 21:9,19 Davakar arvadla bir evdə yaşamaqdansa Damın bir küncündə yaşamaq yaxşıdır. 19 Davakar, deyingən arvadla yaşamaqdansa Çöllükdə yaşamaq yaxşıdır.

Məsəlləri 25:24 Davakar arvadla bir evdə yaşamaqdansa Damın bir küncündə yaşamaq yaxşıdır.

Məsəlləri 27:15,16 Davakar qadın yağışda daman damcıya oxşar. 16 Onu yel kimi dayandırmaq olmaz, Zeytun yağı kimi ovucda saxlamaq olmaz.

Məsəlləri 31:10-31 Xeyirxah arvad tapan kimdir? O, yaqutlardan daha qiymətlidir. 11 Ərinin qəlbi ondan arxayındır, Dayanmadan bərəkət qazanır. 12 Ömrü boyu ərinə pislik deyil, yaxşılıq gətirir, 13 Yunu, kətanı tapıb seçir, Əlindən hər iş zövqlə gəlir. 14 Ticarət gəmilərinə bənzəyir, Uzaqlardan gələn ruzini gətirir. 15 Alaqaranlıqda yuxudan durur, Ailəsinə yemək hazırlayır, Kənizlərinə də paylayır. 16 Tarlaya baxandan sonra satın alır, Əlinin zəhməti ilə bağ salır. 17 Belini möhkəm bağlayır, Qolları güc üstündən güc alır. 18 Ticarətin şirinliyindən dadır, Bütün gecə boyu çırağı yanır. 19 Əlləri ilə cəhrə əyirir, İyini bərkidir. 20 Məzlumlar üçün əliaçıqdır, Fəqirlərə əl tutur. 21 Qar yağanda ailəsi üçün qayğısı olmaz, Çünki hamısı qırmızı paltar geyinib. 22 Yorğan-döşək üçün örtük toxuyur, Öz libası tünd qırmızı incə kətandandır. 23 Əri şəhər darvazalarında yaxşı tanınır, El ağsaqqalları ilə oturub-durur. 24 Qadın tacirlərə qurşaqları, Toxuduğu kətan paltarları satır. 25 Qüvvəyə, şərəfə bürünür, Gələcək üzünə gülür. 26 Ağzını açanda hikmət axır, Dilindən sədaqət təlimi çıxır. 27 Ailəsinin işini idarə edir, Tənbələ layiq olan çörəyi yemir. 28 Övladları ayağa qalxıb onu alqışlayır, Əri onu tərifləyir: 29 «Xeyirxah qadınlar çoxdur, Amma sənin tayın yoxdur». 30 Qadının məlahəti aldadıcı, gözəlliyi fanidir, Yalnız Rəbdən qorxan qadın tərifə layiqdir. 31 Ona əlinin bəhrəsini verin, Qoy şəhər darvazasında əməlləri ona tərif gətirsin.

Pastor T. John Franklin
Church of Salvation, Healing, and Deliverance
COS-HAD.org